**AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**İSMAYILOVA LYUDMİLA FAMİL QIZI**

# AZƏRBAYCAN RESPUBLİKASINDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA SAHİBKARLIĞIN ROLU VƏ STATİSTİK QİYMƏTLƏNDİRİLMƏSİ

**İxtisas: 5311.01-"müəssisələrin təşkili və idarə olunması"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı-2018**

Dissertasiya işi Sumqayıt Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Sakit Məmədi oğlu Yaqubov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor

iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:**

Dissertasiya işinin müdafiəsi_________tarixdə saat_________Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun nəzdində fəaliyyət göstərən FD.04.014 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı ş., Nərimanov rayonu Az-29, 8-ci köndələn, III mərtəbə, akt zalı

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya göndərilmişdir: "___" _____2018-ci il

FD.04.014 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru V. R. Rzayev

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı** Azərbaycanın sosial-iqtisadi inkişafında dövlət siyasətinin strateji məqsədi innovasiya və ixrac yönümlü iqtisadi modeli formalaşdırmaq, qeyri-neft sektorunun inkişafı hesabına iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək və onun strukturunu təkmilləşdirməkdir. Ölkənin innovasiya yönümlü iqtisadiyyatının formalaşdırılmasının və onun iqtisadi təhlükəsizliyinin strateji resurslarından biri kiçik biznesdir. Kiçik biznes iqtisadi artımın və sosial sabitliyin real amili olmaqla, rəqabətin lazımi səviyyədə saxlanmasına, istehsalın çevik yeniləşməsinə, innovasiya proseslərinin sürətlənməsinə, bazar iqtisadiyyatının sosial yönümlüyünün gücləndirilməsinə və iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərir. Deməli, kiçik sahibkarlıq bazar iqtisadiyyatının sosial əsası, cəmiyyətin və dövlətin sabitliyinin təminatçısıdır.

Iqtisadiyyatının inkişafı və sənayenin yeni inkişaf mərhələsinə keçməsi yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini, regional sahibkarlığın iqtisadi artımda rolunun gücləndirilməsini, kiçik innovasiya sahibkarlığının geniş və çevik şəbəkəsinin formalaşdırılmasını nəzərdə tutur. Bu qeyd edilənlər və müasir dünya iqtisadi məkanının çağırışları (istehsalın və bazarların qloballaşması, texnoloji inkişafın və modernləşmənin yüksək artımı, yüksək texnoloji və innovasiya məhsullarının payının artması, kiçik, orta və iri biznesin əməkdaşlığının və sahibkarlığın inkişafının yeni mütərəqqi formalarının tətbiqi miqyasının genişlənməsi və s.) biznesə yeni tələblərin formalaşdırılmasını zəruri edir. Ölkə və regional səviyyədə kiçik sahibkarlığın davamlı inkişafının geniş miqyasda dəstəklənməsi orta və uzunmüddətli perspektivin əsas vəzifələrindən biridir. Bu strateji istiqamət ölkənin və regionların sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsində kiçik sahibkarlığın inkişafına prioritetliyin verilməsini, sənaye klasterlərinin formalaşdırılması əsasında kiçik və iri biznesin təsərrüfat inteqrasiyasının təmin edilməsini, bu sektorun dəstəklənməsi infrastrukturunun bütün ünsürlərinin funksional əlaqəsini, kiçik innovasiya

sahibkarlığının inkişafının çevik mexanizminin formalaşdırılmasını, sahəvi xüsusiyyətlər, sahibkarlıq fəaliyyətinin müxtəlif mərhələləri nəzərə alınmaqla kiçik sahibkarlıq subyektlərinin dəstək əldə etməsinə eyni şəraitin yaradılmasını, beynəlxalq standartlara uyğun onun vəziyyətinin müntəzəm monitorinqi mexanizminin yaradılmasını və aparılmasını və s. tələb edir. Deməli, ölkənin sosial-iqtisadi inkişafının müasir mərhələsində sahibkarlığın inkişafı və dəstəklənməsi, onun yeni formalarının tətbiqi, müxtəlif növ innovasiyaların kommersiyalaşdırılmasının çevik və səmərəli sisteminin formalaşdırılması, klaster şəbəkələri əsasında biznesin inkişafı problemlərinin tədqiqinin mühüm nəzəri və praktiki əhəmiyyəti vardır. Ölkə və regional səviyyədə kiçik biznesin geniş və səmərəli şəbəkəsinin, sənaye klasterlərinin formalaşdırılması və kiçik innovasiya sahibkarlığının fəallaşdırılması qeyri-neft sektorunun inkişafı əsasında yanacaq-enerji kompleksinin prioritetliyinə əsaslanan iqtisadi inkişaf modelinin innovasiya yönümlü iqtisadiyyata çevrilməsinə, onun rəqabətqabiliyyətliyinin yüksəldilməsinə, sabit iqtisadi artımın və əhalinin sosial .' təmin edilməsinə gətirib çıxara bilər. Bütün bunlar tədqiqat mövzusunun aktuallığını müəyyən edir.

**Problemin öyrənilmə vəziyyəti.** İnnovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasında sahibkarlığın rolu və sənayenin rəqabətqabiliyyətliyinin yüksəldilməsinə onun təsiri, kiçik elmtutumlu sahibkarlığın inkişafı, sənaye klasterlərinin formalaşdırılması kimi problemlər dünyanın və ölkənin iqtisadçı alimləri tərəfindən geniş tədqiq edilir. Ölkədə sahibkarlığın və onun müxtəlif növlərinin inkişafının nəzəri - metodoloji problemlərinin araşdırılmasında və öyrənilməsində bir sıra iqtisadçı alimlərin, xüsusilə Z. Ş. Səmədzadə, S. V. Salahov, Ə. X. Nuriyev, Q. N. Manafov, R. M. Cəbiyev, F. M. Məmmədov, V. R. Hüseynəliyev, V.R. Rzayev, V. M. Niftullayev, G. Ə. Gənciyev, A. Ş. Şəkərəliyev, A. B. Abbasov, A. H. Tağıyev, Ə. M. Əliyev və başqalarının böyük əməyi vardır.

Xarici ölkələrin iqtisadçı alimlərindən Y.Şumpeter, M.Porter, M.Q Lapusta, V.Y. Qorfinkel, S.V. Moçernıy, V.V. Nekrasov, K.A. Viktorovic, J.A. Nurbekov və s. sahibkarlığın, o cümlədən kiçik sahibkarlığın inkişaf xüsusiyyətləri, rəqabət-

qabiliyyətli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasında onun yeri və rolunun bu və ya digər tərəflərini tədqiq etmişdir.

Ölkə iqtisadiyyatının diversifikasiyası sahəsində müəyyənləşdirilmiş strateji hədəflərə müvafiq olaraq qeyri-neft sektorunun modernləşdirilməsi, yüksək texnoloji və innovasiya məhsullarının xüsusi çəkisinin artırılması sahibkarlığın və onun dünya təcrübəsində sınaqdan çıxmış innovasiya yönümlü yeni formalarının inkişaf etdirilməsi probleminə sistemli yanaşmanı, onun nəzəri-metodoloji və praktiki aspektlərinin araşdırılmasına diqqətin artırılmasını zəruri etmişdir. Eyni zamanda ölkənin uzunmüddətli sosial-iqtisadi inkişaf konsepsiyasında qeyri-neft sənayesinin iqtisadi artımın əsas mənbəyinə çevrilməsi, ixracın tərkibində bu sektorun payının artırılması, innovasiya sahibkarlığının inkişafı, sənaye istehsalında regionların rolunun yüksəldilməsi, sənaye klasterləri şəbəkəsinin formalaşdırılması və s. kimi məsələlərə prioritetlik verilməsi müasir dövrdə sahibkarlığın inkişafının bu və ya digər tərəflərinin kifayət qədər tədqiq edilmədiyini göstərir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi ölkədə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasında sahibkarlığın rolunu araşdırmaq və innovasiya klasterləri əsasında qeyri-neft sektorunda kiçik biznesin inkişafının prioritet istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə uyğun olaraq aşağıdakı vəzifələrin həll edilməsi zəruri hesab edilmişdir:

-innovasiyalı iqtisadiyyatın formalaşdırılmasında sahibkarlığın rolunu araşdırmaq;

- klasterli model əsasında iqtisadi inkişafın beynəlxalq təcrübəsini öyrənmək;

- klaster şəbəkələrinin formalaşdırılması və kiçik biznesin inkişafında onların rolunu araşdırmaq;

-kiçik sahibkarlığın inkişafının statistik göstəricilər sistemini və onun təhlilinin əsas istiqamətlərini müəyyənləşdirmək;

-Azərbaycanda kiçik sahibkarlığın inkişafını və onun regional diferensasiyasını statistik təhlil etmək və xüsusiyyətlərini müəyyənləşdirmək;

- sahibkarlığın inkişafı monitorinqinin təşkili xüsusiyyətlərini və beynəlxalq

təcrübəsini araşdırmaq;

-innovasiya proseslərinin dövlət tənzimlənməsininin prioritet istiqamətlərini müəyyənləşdirmək;

-klasterli inkişafın normativ-hüquqi bazası və regional istehsal şəbəkəsinin formalaşdırılması istiqamətlərini müəyyənləşdirmək;

-qeyri-neft sektorunda kiçik elmtutumlu sahibkarlığın və innovasiya klasterlərinin inkişafı üzrə əsaslandırılmış təklif və tövsiyyələr formalaşdırmaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ölkədə kiçik sahibkarlıq subyektlərinin fəaliyyətidir, tədqiqatın predmetini isə kiçik sahibkarlığın inkişafı və sənaye klasterlərinin formalaşdırılması prosesində yaranan təşkilati-iqtisadi münasibətlər sistemi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** ölkədə sahibkarlığın, o cümlədən kiçik sahibkarlığın və sənayenin inkişafı, onların tənzimlənməsi sahəsində qəbul edilmiş qanunlar, normativ - hüquqi sənədlər, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması və klasterli modelə əsaslanan kiçik innovasiya sahibkarlığının formalaşdırılması prinsiplərini və qanunauyğunluqlarını tədqiq edən xarici və yerli alimlərin elmi əsərləri, həmçinin ölkənin uzunmüddətli sosial - iqtisadi inkişafı üzrə qəbul edilmiş dövlət proqramları və konsepsiyalar təşkil edir.

Tədqiqat prosesində müqayisəli təhlil, qrafik, dinamika sıralarının təhlili, orta kəmiyyətlər və s. metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik məcmuələri, Sahibkarlığa Kömək Milli Fondunun hesabatları və təhlili məruzələri, sahibkarlıq fəaliyyətinin inkişafı üzrə müvafiq hesabatlar, rəsmi internet saytları, elmi ədəbiyyatda və dövrü mətbuatda nəşr edilən məlumatlar və s. təşkil etmişdir.

**İşin elmi yenilikləri aşağıdakılardan ibarətdir:**

- innovasiyalı iqtisadiyyatın formalaşdırılmasında sahibkarlığın, xüsusilə kiçik innovasiya sahibkarlığının rolu müəyyənləşdirilmişdir;

-klasterli model əsasında iqtisadi inkişafın beynəlxalq təcrübəsi öyrənilmiş və onun ölkədə tətbiqi imkanları əsaslandırılmışdır;

-kiçik biznesin inkişafında klasterli yanaşmanın prinsipləri müəyyənləşdirilmiş, onun üstünlükləri və kiçik biznesin klasterli model əsasında inkişafına mane olan problemlər aşkar edilmişdir;

-kiçik sahibkarlığın inkişafının statistik göstəricilər sistemi və onun təhlilinin prioritet istiqamətləri müəyyənləşdirilmişdir;

-ölkədə kiçik sahibkarlığın müasir vəziyyəti və regional diferensasiyası statistik təhlil edilmiş və inkişaf xüsusiyyətləri aşkar edilmişdir;

-sahibkarlığın inkişafı monitorinqinin təkmilləşdirilməsi üzrə müvafiq tövsiyyələr işlənib hazırlanmışdır;

-klasterli inkişafın normativ-hüquqi bazasının təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş və regional istehsal şəbəkəsinin formalaşdırılması xüsusiyyətləri aşkar edilmişdir;

- qeyri-neft sektorunda kiçik elmtutumlu sahibkarlığın, onun müxtəlif formalarının və innovasiya klasterlərinin inkişaf istiqamətləri əsaslandırılmışdır.

**İşin təcrübi əhəmiyyəti.** Tədqiqat prosesində əldə edilən nəzəri, metodiki və praktiki nəticələrin ölkədə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması üzrə strateji vəzifələrin yerinə yetirilməsində, kiçik sahibkarlığın inkişafının fəallaşdırılması və sahəvi xüsusiyyətləri nəzərə alınmaqla dövlət tərəfindən dəstəklənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin işlənib hazırlanmasında, sənaye klasterlərinin formalaşdırılması, kiçik innovasiya sahibkarlığının inkişafı və tənzimlənməsi, həmçinin bu sektorun normativ-hüquqi bazasının və müntəzəm monitorinqi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi üzrə konkret tövsiyyələrin hazırlanmasında mühüm əhəmiyyəti ola bilər.

**Tədqiqatın nəticələrinin dərc edilməsi və nəşri.** Tədqiqatın əsas müddəaları Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin keçirdiyi konfransda - “Kiçik biznesin cari vəziyyətinin statistik qiymətləndirilməsinin bəzi məsələləri” adlı tezisi (2014), doktorant və gənc tədqiqatçıların XIX respublika elmi konfransında- “Ölkənin qeyri- neft sektorunda kiçik sahibkarlığın inkişafı və innovasiya klasterləri” adlı tezisi (2015), Sumqayıt Dövlət Universitetində keçirilmiş beynəlxalq elmi konfransda- “İnnovasiya fəaliyyətinin inkişafında dövlət və xüsusi sektorun əməkdaşlığı” adlı tezisi

(2016), doktorant və gənc tədqiqatçıların XX respublika elmi konfransında- "Sahibkarlığın inkişafı innovasiya yönümlü iqtisadiyyatın formalaşmasının əsas amili kimi" adlı tezisi (2016) məruzə edilmiş, həmçinin digər elmi məqalələrdə- "Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində kiçik biznesin rolu" (2014), "Статистическая оценка влияния малого бизнеса на экономическое развитие» (2016), «The important aspects of entrepreneurship in the development of the non –oil sector of Azerbaijans economy in the context of inplementation of strategic road maps" (2017), "Qeyri - neft sektorunda sahibkarlığın inkişafında innovasiya klasterlərinin formalaşdırılmasının perspektiv istiqamətləri" (2017), "Kiçik sahibkarlığın inkişafının statistik göstəricilər sistemi və onun təhlili istiqamətləri" (2017), "Sahibkarlığın inkişafı və onun monitorinqinin təşkili məsələləri" (2017), "Kiçik biznesin inkişafında klaster şəbəkələrinin yaradılmasının əhəmiyyəti" (2017) öz əksini tapmışdır.

Tədqiqat mövzusu üzrə müəllifin 4 tezisi və 7 elmi məqaləsi dərc edilmişdir.

Tədqiqatın nəticələri Sumqayıt Dövlət Universitetində müvafiq fənlərin tədrisi prosesində istifadə üçün qəbul edilmişdir (arayış, 07.03.2018).

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Onun ümumi həcmi 150 səhifədir. İşdə 9 cədvəl, 6 şəkil verilmişdir. Dissertasiyanın yazılması prosesində 149 ədəbiyyatdan istifadə edilmişdir.

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **GİRİŞ** | ................................................................................................. | 3 |
| **I FƏSİL** | **İNNOVASİYALI İQTİSADİYYATIN FORMALAŞMASINDA SAHİBKARLIĞIN ROLU VƏ ONUN NƏZƏRİ MƏSƏLƏLƏRİ ............** | 9 |
| **1.1.** | İnnovasiyalı iqtisadiyyatın formalaşması və sahibkarlığın inkişafının nəzəri məsələləri ...................................................... | 9 |
| **1.2.** | Klasterli model əsasında iqtisadi inkişafın beynəlxalq təcrübəsi.. | 27 |
| **1.3.** | Kiçik biznesin inkişafında klaster şəbəkələrinin rolu................... | 37 |
| **II FƏSİL** | **AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK SAHİBKARLIĞIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ ONUN MONİTORİNQİNİN TƏŞKİLİ......................................................** | 43 |
| **2.1** | Kiçik sahibkarlığın inkişafının statistik göstəricilər sistemi və onun təhlilinin əsas istiqamətləri............................................... | 43 |
| **2.2** | Azərbaycanda kiçik sahibkarlığın inkişafının və regional diferensasiyasının statistik təhlili................................................. | 53 |
| **2.3** | Sahibkarlığın inkişafı və onun monitorinqinin təşkili məsələləri.. | 82 |
| **III FƏSİL** | **AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNDA İNNOVASİYA KLASTERLƏRİ ƏSASINDA KİÇİK BİZNESİN İNKİŞAFININ PRİORİTET İSTİQA-MƏTLƏRİ..............................................................** | 91 |

**3.1** İnnovasiya proseslərinin dövlət tənzimlənməsinin prioritet istiqamətləri................................................................................. 91
**3.2** Klasterli inkişafın normativ-hüquqi bazası və regional istehsal şəbəkəsinin formalaşdırılması .................................................... 106
**3.3** Qeyri-neft sektorunda kiçik elmtutumlu sahibkarlığın inkişafı və innovasiya klasterlərinin formalaşdırılmasının perspektiv istiqamətləri......................................................................... 117
**NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................................... 130**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT....................................................................... 138**

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın girişində mövzunun aktuallığı əsaslandırılır, onun öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, nəzəri və informasiya bazası, elmi yenilikləri, təcrübi əhəmiyyəti və aprobasiyası şərh edilmişdir.

**Dissertasiyanın "İnnovasiyali iqtisadiyyatin formalaşmasinda sahibkarliğin rolu və onun nəzəri məsələləri" adlanan birinci fəslində** innovasiyalı iqtisadiyyatın formalaşması və sahibkarlığın inkişafının nəzəri məsələləri, klasterli model əsasında iqtisadi inkişafın beynəlxalq təcrübəsi, kiçik biznesin inkişafında klaster şəbəkələrinin rolu məsələləri tədqiq edilmişdir. Tədqiqatda qeyd olunmuşdur ki, müasir dövrdə beynəlxalq miqyasda rəqabətin kəskinləşdiyi şəraitdə hər uğurlu fəaliyyətin zəruri şərtlərindən biri yeni biliyə və

texnologiyaya prioritetliyin verilməsidir. Bu, innovasiyalı inkişafın əsas ünsürüdür. İnnovasiya tipli, şaxələndirilmiş və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasında sahibkarlığın, xüsusilə kiçik biznesin mühüm rolu vardır.

Ölkənin sosial-iqtisadi inkişafının hazırki mərhələsində prioritet istiqamətlərdən biri kiçik sahibkarlığın inkişafıdır. Kiçik biznes müasir sahibkarlığın əsasını təşkil edir. Kiçik sahibkarlığın real sosial-iqtisadi əhəmiyyətinin qiymətləndirilməsi və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi onun zəif və güclü tərəflərinin aşkar edilməsini zəruri edir.

İqtisadiyyatın bu sektorunun cəmiyyətin iqtisadi və sosial problemlərinin həll edilməsində, innovasiya fəaliyyətinin genişləndirilməsində və rəqabətqabiliyyətliyin yüksəldilməsində real imkanlarının olması və inkişaf perspektivliliyi aşağıda qeyd edilənlərlə müəyyən olunur:

-kiçik biznes iqtisadiyyatda yeni iş yerlərinin əsas "yaradıcısıdır";

- bu sektor vasitəsilə dövlət iqtisadiyyatda məhdud yerləri, o cümlədən istehlak mal və xidmətlərinin yerli bazarını genişləndirə bilər;

-iri istehsala nisbətən kiçik biznes daha səmərəlidir və ona görə də, ilk növbədə onun dəstəklənməsi vacibdir;

- kiçik biznesin inkişafı üçün dövlət tərəfindən əsaslandırılmış, təyinatlı, diferensiallaşdırılmış və kompleks güclü dəstəyin olması vacibdir.

Ölkənin ümumi iqtisadi inkişaf hədəflərinə uyğun olaraq kiçik biznesin kompleks inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi, həmçinin əlverişli biznes mühitinin formalaşdırılması olduqca vacibdir. İqtisadiyyatın diversifikasiyasının və modernləşdirilməsinin ənənəvi metodları ilə müqayisədə biznesin təşkilinin daha adekvat modeli kimi klasterləşmə ölkə iqtisadiyyatını qlobal rəqabətin təzyiqlərinə qarşı durmasına imkan verir. Regional səviyyədə klaster strategiyası əsasında iri və kiçik biznesin, universitetlərin, innovasiya sistemi iştirakçılarının, maliyyə strukturlarının dinamik qarşılıqlı fəaliyyətinin dəstəklənməsi bütövlükdə iqtisadiyyata dinamiklik verməklə, onun rəqabətqabiliyyətliyinin yüksəldilməsini təmin edir.

Dissertasiyada əsaslandırılmışdır ki, rəqabətqabiliyyətliyin yüksək səviyyəsinə

nail olmanın ən səmərəli forması innovasiyanın bütün subyektlərini əhatə etmək qabiliyyətində olan diversifikasiyalı innovasiya klasterləridir. Diversifikasiyalı klasterin üstünlüyü onun əhatəlilik səmərəsidir. Klasterin bu formasının tətbiqi həm klaster daxili, həm də klaster xarici intellektual və maliyyə resurslarının səmərəli inteqrasiyasına imkan verir. Fikrimizcə, ölkədə kiçik sahibkarlığın inkişafının iqtisadi baxımdan ən səmərəli və rəqabətqabiliyyətli istiqaməti sənaye klasterlərinin formalaşdırılması vasitəsilə iri bizneslə təsərrüfat inteqrasiyasıdır. Dünya təcrübəsi göstərir ki, normal bazar iqtisadiyyatı şəraitində kiçik müəssisələrin əksəriyyəti bu və ya digər şəkildə iri müəssisələrin maraq dairəsindədir. İri bizneslə əməkdaşlıq şəbəkəsində kiçik biznes subyektləri iri müəssisələrin istehsal strukturunun ayrılmaz hissəsi kimi çıxış edir. Belə əməkdaşlıq iri biznesə yeni texniki qərarların axtarılıb tapılması və reallaşdırılması, yeni satış bazarlarına nüfuz edilməsi, qabaqcıl innovasiya texnologiyaları haqqında mühüm informasiyanın operativ əldə edilməsi, bu və ya digər əməliyyatlarla bağlı risklərin kiçik sahibkarlıq strukturuna ötürülməsi və s. ilə bağlı məsələlərdə fəallığının artırılmasına imkan verir. Klaster şəbəkəsi daxilində fəaliyyət göstərən kiçik müəssisələr bir sıra vəzifələrin asan həll edilməsi imkanı əldə edir ki, bunlara da əsasən innovasiyanın yayılması, ixtisaslı heyətə əl çatma, istehsalın təşkili prosesinin asanlaşması, yeni texnoloji qərarların qəbul edilməsində rəqabət imkanının yaranması və s. aid etmək olar.

Araşdırmalara əsaslanaraq klasterləşmənin ilkin şərtlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

-bazar iqtisadiyyatı şəraitində klasterlərin inzibati qərarlarla yaradılmaması;

- bütün səviyyələrdə, o cümlədən regional səviyyədə dövlət dəstəyi tədbirləri ilə klasterlərin formalaşdırılmasına və inkişafına fəal təsir edilməsi;

-klasterləşmənin dəstəklənməsinin məqsədli xarakter daşıması və rəqabətqabiliyyətlilik potensialı daha yüksək olan sahələrə istiqamətlənməsi;

- klaster siyasətinin prioritet istiqamətlərinin daimi monitorinqi və onların seçilməsi üçün etibarlı vasitələrin olması;

-klasterlərin dəstəklənməsi prinsip və mexanizmlərinin müəyyən edilməsi.

Ölkədə klaster modeli əsasında kiçik sahibkarlığın inkişafına mane olan əsas problemlərə aşağıdakıları aid etmək olar:

-klaster texnologiyasının həyata keçirilməsini təmin edən səmərəli metodoloji bazanın olmaması;

- icraedici hakimiyyət orqanları və biznes nümayəndələrinin klasterli yanaşmanın tətbiqi məsələləri barəsində kifayət qədər məlumatlı olmaması;

- klasterlərin təşkili üzrə hazırlıqlı mütəxəssislərin çatışmazlığı;

-klasterlərin formalaşdırılması ideyaçılarının və onları təcrübədə həyata keçirən liderlərin olmaması;

-innovasiyalı kiçik sahibkarlığın yeni formalarının aşağı inkişaf səviyyəsi və s.

Kiçik müəssisə klasterlərinin fəaliyyət mexanizminin fərqləndirici xüsusiyyətləri bir sıra müsbət səmərənin yaranmasıdır (şəkil 1.).

Müəssisələrin istehsalda, yaxud da müəyyən növ məhsul və xidmətlərin təqdim edilməsində ixtisaslaşması əsasında iqtisadi fəaliyyətin miqyas səmərəsi yaranır ki, bu da bütövlükdə klasterlərin fəaliyyətində multiplikativ səmərəyə gətirib çıxarır.

Klaster şəbəkələri daxilində bir neçə növ məhsulun eyni vaxtda istehsalının təşkili əhatə səmərəsini verir. Müəssisələrin qarşılıqlı fəaliyyəti prosesində bəzi əlavə xərclərin ixtisarı nəticəsində xərclərin azaldılması səmərəsinin ortaya çıxması məhsulu daha az xərclə istehsal etməyə imkan verir.Klasterli model çərçivəsində səmərəli fəaliyyət mexanizminin seçilməsi və təmin edilməsi bir çox amillərin qarşılıqlı fəaliyyətinin sinergetik səmərəsinə imkan verir.




**Mənbə: Müəllif tərəfindən ilk dəfə işlənilmişdir.**

**Şəkil 1. Kiçik müəssisə klasterlərinin müsbət səmərəsi**

Beləliklə ölkənin uzunmüddətli sosial-iqtisadi inkişaf konsepsiyası ayrı-ayrı sahələrin və ərazilərin rəqabət potensialını reallaşdıran diferensiallaşdırılmış istehsal klasterləri şəbəkəsinin, bir sıra yüksək texnoloji innovasiya klasterlərinin formalaşdırılmasını nəzərdə tutur. Məhz bu "təkanverici nöqtələr" vasitəsilə yeni texnoloji baza əsasında iqtisadiyyatın qlobal rəqabətqabiliyyətliyinin yüksəldilməsi və onun şaxələndirilməsi təmin edilməlidir.

**Dissertasiyanın "Azərbaycan Respublikasinda kiçik sahibkarliğin müasir vəziyyətinin təhlili və onun monitorinqinin təşkili" adlanan ikinci fəslində** kiçik sahibkarlığın inkişafının statistik göstəricilər sistemi və onun təhlilinin əsas istiqamətləri, Azərbaycanda kiçik sahibkarlığın inkişafının və regional diferensasiyasının statistik təhlili, sahibkarlığın inkişafı və onun monitorinqinin təşkili məsələlərinə baxılmışdır.

Dissertasiyanın bu fəslində respublikamızda kiçik sahibkarlığın inkişaf göstəricilərinin təhlili aparılmişdır. Kiçik sahibkarlığın vəziyyətinin hərtərəfli öyrənilməsi onun fəaliyyət miqyasının, inkişaf resurslarının, onlardan istifadə səmərəliliyinin, kiçik biznesin innovasiya fəallığının, fəaliyyət nəticələrinin kompleks qiymətləndirilməsini nəzərdə tutur. Bu gün ölkədə kiçik sahibkarlıq sferasındakı sosial-iqtisadi hadisə və prosesləri əks etdirən statistik göstəricilər sisteminin genişləndirilməsi üzrə mühüm işlər həyata keçirilir. Mövcud statistik informasiya mənbələri əsasında kiçik sahibkarlıq strukturunun səmərəliliyinin qiymətləndirilməsi, bir sıra inteqral indekslərin hesablanması, kiçik sahibkarlığın investisiya fəallığı və innovasiya fəaliyyətini və s. bu və ya digər səviyyədə təhlil etmək mümkündür.

Qeyd olunmuşdur ki, ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində onun modernləşdirilməsinin və rəqabətqabiliyyətliyinin yüksəldilməsinin, həmçinin innovasiya fəaliyyətinin genişləndirilməsinin hərəkətverici qüvvəsi kimi kiçik sahibkarlığın fəallığının yüksəldilməsinə prioritetlik verilir. Orta və uzunmüddətli dövrdə bu prosesin inkişaf meylinin və innovasiyalılığın gücləndirilməsində kiçik sahibkarlığın rolunun qiymətləndirilməsi məqsədilə onun

informasiya bazasının formalaşdırılması zəruridir. Kiçik sahibkarlıq sektorunda resurslardan istifadənin səmərəliliyini, maliyyə vəziyyətini, əsas və dövriyyə fondlarını, onun fəaliyyət miqyasını, fəaliyyət nəticələrini xarakterizə edən göstəricilərlə yanaşı, investisiya fəallığını və innovasiya fəaliyyətini səciyyələndirməyə imkan verən göstəricilərin də formalaşdırılması vacibdir. Kiçik təsərrüfat subyektlərinin investisiya fəallığını öyrənərkən əsas kapitala yönəldilən investisiyaya və onun quruluşuna, digər qeyri-maliyyə aktivlərinə investisiyaya, maliyyə vəziyyətini və maliyyə lizinqini xarakterizə edən göstəricilərə, kapital qoyuluşunun maliyyələşdirmə mənbələrinə və s., innovasiya fəaliyyətini qiymətləndirərkən isə innovasiya həyata keçirən müəssisələrin sayı, onlarda işçilərin sayı, innovasiya xərcləri, innovasiya mal və xidmətlərinin həcmi, texnoloji transfer və s. kimi göstəricilərə fikir verilməsi zəruridir. Bunlarla yanaşı, kiçik müəssisələrin demoqrafiyasına, onun rəhbərini müxtəlif əlamətlər üzrə xarakterizə edən göstəricilərə, sahibkarlıq mühiti göstəricilərinə (kəmiyyət göstəriciləri - kiçik biznesdə məşğul olanların xüsusi çəkisi, əhalinin 1000 nəfərinə düşən kiçik sahibkarlıq subyektlərinin sayı, kiçik biznes sektorunda məşğul olanların hər nəfərinə düşən şəxsi vəsaitin, gəlirin, investisiyanın və xalis mənfəətin həcmi, keyfiyyət göstəriciləri - əhalinin sahibkarlıq potensialı və sahibkarların rəyi indeksləri) də fikir verilməsinin məqsədəuyğunluğu əsaslandırılmışdır. Araşdırma göstərmişdir ki, müasir dövrdə kiçik sahibkarlığın dəstəklənməsinin mükəmməl mexanizminin, optimal forma və növlərinin işlənib hazırlanması, həmçinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsinin əsas problemlərindən biri həqiqi qeydiyyata alınmış kiçik müəssisələrin, onlardan fəal olanları, sahibkarlıq potensialı və fəallığı, xüsusilə biznesin inkişafının ilk mərhələsi və s. haqqında tam və etibarlı informasiya bazasının olmamasıdır. Kiçik biznesin inkişafını xarakterizə edən informasiya bazası klasterli yanaşma əsasında bu sektorun inkişafının nəticələrini, onun mütərəqqi formalarının inkişaf səviyyəsini, ölkənin ixracat potensialının artırılmasında, ölkə iqtisadiyyatının diversifikasiyasında, onun innovasiya xarakterinin artırılmasında, həmçinin ölkənin Ümumi Daxili Məhsulunda regional kiçik sahibkarlıq subyektlərinin və s. rolu və payı meyllərinin

monitorinqi və statistik təhlilini aparmağa imkan verməlidir.

Fikrimizcə, kiçik biznes sektorunda baş verən mühüm dəyişikliklərin monitorinqi və müqayisəli statistik təhlili kiçik biznesin formalaşmasına təsir edən əsas amillərin müəyyənləşdirilməsi, sahibkarlıq fəallığının məkan xüsusiyyətlərinin müəyyənləşdirilməsi, regional bölümdə kiçik və orta sahibkarlığın inkişafı, kiçik biznesin yaranma xüsusiyyətlərinin araşdırılması, bank sektoru ilə kiçik və orta biznesin qarşılıqlı əlaqələrinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, klasterli model əsasında kiçik sahibkarlığın inkişaf nəticələrinin təhlili, onun mütərəqqi formalarının inkişaf səviyyəsi, bu sektorun perspektiv inkişaf meyllərinin modelləşdirilməsi və proqnozlaşdırılması və s. kimi məsələləri əhatə etməlidir.

Ölkədə kiçik və orta sahibkarlığın inkişafına yaradılan əlverişli şərait bu sektorun, o cümlədən kiçik, xarici və birgə müəssisələrin fəaliyyət miqyasının genişlənməsinə öz müsbət təsirini göstərmişdir. 1 saylı cədvəlin məlumatlarından göründüyü kimi, 2011-ci ildə ölkədə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin sayı 135353, xarici və birgə müəssisələrin sayı isə 899 vahid olmuşdur. 2011-ci ilə nisbətən 2016-cı ildə kiçik sahibkarlıq subyektlərinin sayı 38,6% artaraq 52245 vahid, xarici və birgə müəssisələrin sayında bu artım müvafiq olaraq 42,0% və 378 vahid olmuşdur. Son illərdə, yəni 2015-ci ilə nisbətən 2016-cı ildə kiçik sahibkarlıq subyektlərinin sayı 2,4% (4327 vahid), xarici və birgə müəssisələrin sayı isə 3,4% (42 vahid) artmışdır. Son dövrlərdə kiçik sahibkarlıq subyektlərinin, xarici və birgə müəssisələrin sayı artmışdır ki, bu da ölkənin bir çox sosial-iqtisadi problemlərinin həll edilməsində mühüm rol oynamışdır.

**Cədvəl 1.**

**2011-2016-cı illərdə Azərbaycan Respublikasında bazar iqtisadiyyatı strukturlarının fəaliyyəti**

| İllər | Kiçik sahibkarlıq subyektlərinin sayı | Xarici və birgə müəssisələrin sayı |
|---|---|---|
| 2011 | 135353 | 899 |
| 2012 | 141422 | 1083 |
| 2013 | 165277 | 1140 |

| | | |
|---|---|---|
| 2014 | 186898 | 1270 |
| 2015 | 183271 | 1235 |
| 2016 | 187598 | 1277 |

Mənbə: 1.Azərbaycanın Statistik Göstəriciləri, ADSK, Bakı, 2016.

2. Azərbaycanda kiçik sahibkarlıq, ADSK, Bakı, 2016

2011-2016-cı illərdə həm kiçik sahibkarlıq subyektləri, həm də xarici və birgə müəssisələr ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynamış və onların fəaliyyətini xarakterizə edən göstəricilərin dinamikasında müəyyən meyl müşahidə olunmuşdur.

Tədqiqat işində qeyd olunmuşdur ki, ölkənin regionları müxtəlif sosial-iqtisadi şəraitə (əhalinin demoqrafik quruluşu, təhsil səviyyəsi, sənayenin inkişafı, sahibkarlıq potensialı və s.) malikdir və ona görə də bütün ərazilərdə sahibkarlıq fəallığı eyni ola bilməz. Lakin buna baxmayaraq regional müstəvidə kiçik biznesin inkişafı ölkənin müəyyənləşdirilmiş inkişaf strategiyasının məqsəd və vəzifələrinə cavab verməlidir. Kiçik sahibkarlığın inkişafı regionun sosial-iqtisadi potensialının həyata keçirilməsinin mühüm amillərindən biridir.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasının regionları üzrə kiçik sahibkarlıq subyektləri 2011-2016-cı illərdə**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Ölkə üzrə cəmi<br>o cümlədən: | 135353 | 141422 | 165277 | 186898 | 183271 | 187598 |
| Bakı şəhəri<br>% | 47621<br>**35.2** | 50029<br>**35.4** | 58265<br>**35.3** | 70253<br>**37,6** | 76530<br>**41,8** | 72815<br>**38,8** |
| Abşeron iqtisadi rayonu | 10945<br>8.1 | 10765<br>7.6 | 12546<br>7,6 | 13824<br>7,4 | 12025<br>6,6 | 14279<br>7,6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| % | | | | | | |
| Gəncə-Qazax iqtisadi rayonu, % | 15983 **11,8** | 16869 **11,9** | 20586 **12.5** | 22114 **11,8** | 19603 **10,7** | 21263 **11,3** |
| Şəki -Zaqatala iqtisadi rayonu,% | 8491 6.3 | 9096 6.4 | 10717 6.5 | 11485 6,1 | 11160 6,1 | 11554 6,2 |
| Lənkəran iqtisadi rayonu % | 8690 6.4 | 8996 6.4 | 10193 6,2 | 11935 6,4 | 11702 6,4 | 11974 6,4 |
| Quba-Xaçmaz iqtisadi rayonu % | 6259 4.6 | 6557 4.6 | 8081 4,9 | 9107 4,9 | 8993 4,9 | 9263 4,9 |
| Aran iqtisadi rayonu % | 25434 **18.8** | 26135 **18.5** | 30256 **18.3** | 32670 **17,5** | 29395 **16,0** | 31867 **17,0** |
| Yuxarı-Qarabag iqtisadi rayonu % | 2297 1.7 | 2756 1.9 | 3442 2,1 | 3492 1,9 | 3101 1,7 | 3198 1,7 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu % | 272 0.2 | 386 0.3 | 433 0.3 | 514 0,3 | 132 0,0 | 128 0,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu % | 3705 2.7 | 4029 2.8 | 4612 2.8 | 5115 2,7 | 4884 2,7 | 4975 2,7 |
| Naxçıvan iqtisadi rayonu % | 5656 4.2 | 5804 4.1 | 6146 3,7 | 6389 3,4 | 5746 3,1 | 6282 3,3 |

Mənbə: **www. stat.gov.az**

2 saylı cədvəlin məlumatlarından göründüyü kimi, kiçik sahibkarlıq subyektləri daha çox ölkənin bir neçə regionunda cəmləşmişdir. Belə ki, 2011-ci ildə ölkə üzrə ümumilikdə fəaliyyət göstərən kiçik biznes subyektlərinin sayı 135353 vahid olmuşdur və bunun 47621 vahidi, yəni 35,2%-i Bakı şəhərinin, 25434 vahidi, yəni

18,8%-i Aran iqtisadi rayonunun, 15983 vahidi, yəni 11,8%-i Gəncə-Qazax iqtisadi rayonunun, payına düşmüşdür. 2016-cı ildə bu bölgü müvafiq olaraq 38,8%, 17,0% və 11,3% olmuşdur. Göründüyü kimi, müqayisə edilən dövrdə kiçik sahibkarlığın payı Bakı şəhərində artmış, digər iqtisadi rayonlarda isə az da olsa azalmışdır. 2011-ci ildə kiçik sahibkarlığın 65,8%-i, 2016-cı ildə isə 67,1%-i bu üç iqtisadi rayonda cəmləşmişdir. Kiçik sahibkarlığın inkişafını xarakterizə edən ümumiləşdirici göstərici olan ölkənin regionları üzrə əhalinin hər 1000 nəfərinə düşən kiçik sahibkarlıq subyektlərinin sayı 2011-ci ildə 15 vahid idisə, 2016-cı ildə bu 19 vahid olmuşdur. Lakin bir sıra regionlarda, o cümlədən Bakı şəhərində və Abşeron iqtisadi rayonunda bu göstərici ölkə üzrə ümumi səviyyədən yüksək olmuşdur. Belə ki, Bakı şəhərində bu göstərici 35 vahid, Abşeron iqtisadi rayonunda 27 vahid təşkil etmişdir. Digər iqtisadi rayonlarda bu göstəricinin səviyyəsi ya ümumi ölkə səviyyəsinə bərabərdir, yaxud ondan azdır. Rəsmi statistikanın məlumatlarının təhlili ölkənin regionları üzrə kiçik sahibkarlığın inkişafının əlverişli quruluşunun formalaşmadığını göstərir. Əlbəttə ki, bu da ölkənin strateji inkişaf hədəflərinin tələblərinə cavab vermir və bir sıra problemlər yaradır.

Fikrimizcə, regionlarda kiçik sahibkarlığın inkişafını daha keyfiyyətli səviyyəyə qaldırmağa mane olan əsas problemlər aşağıdakılardır:

- əmək bazarında tələb olunan ixtisaslı işçi çatımazlığı;
- həm biznesin təşkili, həm də sonrakı fəaliyyət mərhələsində maliyyə (investisiya) resurslarının cəlb edilməsi çətinliyi;
- istehsal və ofis yerlərinə əlçatmanın məhdudluğu;
- mövcud istehsalın modernləşdirilməsi və yenilərinin tətbiqi tempinin aşağı olması;
- kiçik sahibkarlığın iri bizneslə münasibətlərinin, dövlət-xüsusi sektor əməkdaşlığının kifayət qədər inkişaf etməməsi;
- korporativ sahibkarlıq mədəniyyətinin zəif olması və s.

Kiçik sahibkarlığın inkişafına mane olan bu problemlər bir-biri ilə qarşılıqlı əlaqədədir və bir-birini şərtləndirir. Ona görə də bütün səviyyələrdə onların həllinə

kompleks yanaşmaq lazımdır.

Qeyd olunmuşdur ki, kiçik sahibkarlığın cari vəziyyətini xarakterizə edən göstəricilərin təhlili bu sektorun ölkənin inkişafının əsas parametrlərində rolunun aşağı olduğunu göstərir. Belə mənzərə kiçik biznesin dövlət tərəfindən dəstəklənməsinin heç də həmişə məqsədəmüvafiq olmadığını deməyə əsas verir. Belə vəziyyətin yaranmasının əsas səbəblərindən biri  kiçik biznesin ölkənin iqtisadi inkişafında rolunun kompleks qiymətləndirilməməsidir. Kiçik sahibkarlığın inkişafının sosial-iqtisadi həyatın müxtəlif tərəflərinə təsirinin qiymətləndirilməsi istiqamətlərini ümumi şəkildə aşağıdakı sxemdə vermək olar (Şəkil 2.).




**Mənbə: Müəllif tərəfindən ilk dəfə işlənilmişdir.**

**Şəkil 2. Kiçik sahibkarlığın iqtisadi inkişafa təsirinin qiymətləndirilməsinin  əsas istiqamətləri və  istifadə edilən göstəricilər**

Təhlil prosesində iqtisadi inkişafın nəticə göstəriciləri kimi sənaye məhsulunun, ÜDM-nın həcmi, büdcə gəlirlərinin həcmi, iqtisadiyyatda məşğul olanların sayı, əhalinin hər nəfərinə düşən pul gəlirləri və əsas kapitala investisiyanın həcmi götürülmüşdür. Qeyd edilən istiqamətlər üzrə nəticə amillərinə (göstəricilərinə)

təsir edə bilən kiçik sahibkarlığın inkişafının amil göstəriciləri kimi isə aşağıdakılar seçilmişdir:

- kiçik sahibkarlıq subyektlərinin sayı ($F_1$);
- əhalinin hər 1000 nəfərinə düşən kiçik sahibkarlıq subyektlərinin sayı ($F_2$);
- kiçik sahibkarlıq subyektlərində çalışan işçilərin sayı ($F_3$);
- kiçik sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi ($F_4$);
- kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyaların həcmi ($F_5$);
- kiçik sahibkarlıq subyektlərinin ümumi mənfəətinin həcmi ($F_6$);
- kiçik sahibkarlıq subyektlərinin məhsulunun həcminin ÜDM - nın həcmində xüsusi çəkisi ($F_7$);
- kiçik sahibkarlıq subyektlərinin məhsulunun həcminin sənaye məhsulunun həcmində xüsusi çəkisi ($F_8$);
- kiçik sahibkarlıq subyektlərində məşğul olanların sayının ümumi məşğul əhalidə xüsusi çəkisi ($F_9$).

2011-2016-cı illər üzrə ölkədə kiçik sahibkarlığın iqtisadi inkişafda rolunu qiymətləndirmək üçün zəruri olan məlumatlar 3 saylı cədvəldə verilmişdir (Cədvəl 3).

**Cədvəl 3.**

**Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını və kiçik sahibkarlığın vəziyyətini xarakterizə edən bəzi göstəricilər 2011-2016-cı illərdə**

| Göstəricilər | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| 1.Sənaye məhsulunun həcmi,mlrd.manat | 35.0 | 34.6 | 33.9 | 32.1 | 26,4 | 32,3 |
| 2.ÜDM-nın həcmi, mlrd.manat | 52.1 | 54.7 | 58.2 | 59.0 | 54,4 | 60,4 |
| 3.Büdcə gəlirlərinin həcmi, mlrd.manat | 15.7 | 17.3 | 19.5 | 18.4 | 17,5 | 17,5 |
| 4.Iqtisadiyyatda məşğul olanların sayı, mln.nəfər | 4.4 | 4.4 | 4.5 | 4.6 | 4,7 | 4,8 |
| 5.Əhalinin hər nəfərinə düşən pul gəlirləri, min manat | 3.4 | 3.8 | 4.0 | 4.2 | 4,4 | 4,7 |
| 6.Əsas kapitala investisiya, mlrd.manat | 12,3 | 15,4 | 17,9 | 17,6 | 16,0 | 15,8 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7.Kiçik sahibkarlıq subyektlərinin sayı, min vahid | 135,4 | 141,4 | 165.3 | 186.9 | 183,3 | 187,6 |
| 8.Əhalinin hər 1000 nəfərinə düşən kiçik sahibkarlıq subyektlərinin sayı, vahid | 15 | 15 | 18 | 20 | 20 | 19 |
| 9.Kiçik sahibkarlıq subyektlərində çalışan işçilərin sayı, min nəfər | 90.2 | 95.5 | 109.0 | 115.0 | 87,6 | 100,9 |
| 10.Kiçik sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsulun həcmi, mlrd.manat | 2,0 | 2,4 | 3,1 | 2,5 | 0,6 | 0,4 |
| 11.Kiçik sahibkarlıq subyektlərində əsas kapitala investisiyalar, mln.manat | 737.6 | 531.6 | 486.3 | 746.5 | 807,2 | 665,4 |
| 12.Kiçik sahibkarlıq subyektlərinin ümumi mənfəəti, mln. manat | 85.3 | 122.8 | 165.4 | 175.4 | 176,5 | 158,6 |
| 13.Kiçik sahibkarlıq subyektlərinin məhsulunun həcminin ÜDM –nın həcmində xüsusi çəkisi,% | 3,8 | 4,4 | 5,3 | 4,2 | 1,1 | 0,7 |
| 14.Kiçik sahibkarlıq subyektlərinin məhsulunun həcminin sənaye məhsulunun həcmində xüsusi çəkisi,% | 5,7 | 6,9 | 9,1 | 7,8 | 2,3 | 1,2 |
| 15.Kiçik sahibkarlıq subyektlərində məşğul olanların sayının ümumi məşğul əhalidə xüsusi çəkisi, % | 2.1 | 2.1 | 2.4 | 2.5 | 1,9 | 2,1 |

**Mənbə: 1.Azərbaycanın Statistik Göstəriciləri, DSK, Bakı, 2017.**

Seçilmiş bu göstəricilər arasındakı əlaqənin mövcudluğunu qiymətləndirmək üçün reqressiya - korrelyasiya təhlilindən istifadə edilmişdir. Sosial-iqtisadi inkişafın seçilmiş hər bir nəticə göstəricisinə kiçik sahibkarlığın inkişafını xarakterizə edən göstəricilərin təsiri SPSS (Statistical Package for Social Scinces) proqramında hesablanmış, onlar arasındakı əlaqənin sıxlığı korrelyasiya əmsalı əsasında müəyyənləşdirilmiş, həmçinin həmin əmsalın əhəmiyyətliliyini yoxlamaq məqsədilə Styudentin t kriteriyasından istifadə edilmişdir və nəticələr 4 saylı cədvəldə verilmişdir (Cədvəl 4).

**Cədvəl 4.**

**Reqressiya-korrelyasiya təhlilinin nəticələri**

| Amil göstəriciləri | Korrelyasiya əmsalı | Styudent kriteriyasının hesablanmış qiyməti | Əhəmiyyətliliyin qiymətləndirilməsi, (α=0.05) |
|---|---|---|---|
| | Sənaye məhsulunun həcmi | | |
| F1 | 0.018 | 1.516 | əhəmiyyətli deyil |
| F2 | 0.446 | 4.804 | əhəmiyyətlidir |
| F3 | 0.031 | 1.616 | əhəmiyyətli deyil |
| F4 | 0.540 | 2.560 | əhəmiyyətlidir |
| F5 | 0.567 | 5.147 | əhəmiyyətlidir |
| F6 | 0.333 | 5.489 | əhəmiyyətlidir |
| F7 | 0.179 | 0.572 | əhəmiyyətli deyil |
| F8 | 0.130 | 1.874 | əhəmiyyətli deyil |
| F9 | 0.277 | 3.427 | əhəmiyyətlidir |
| | ÜDM-nın həcmi | | |
| F1 | 0.039 | 1.915 | əhəmiyyətli deyil |
| F2 | 0.118 | 3,805 | əhəmiyyətlidir |
| F3 | 0.079 | 0.508 | əhəmiyyətli deyil |
| F4 | 0.896 | 3.246 | əhəmiyyətlidir |
| F5 | 0.597 | 4.125 | əhəmiyyətlidir |
| F6 | 0.878 | 5.061 | əhəmiyyətlidir |
| F7 | 0.567 | 2.688 | əhəmiyyətlidir |

| | | | |
|---|---|---|---|
| F8 | 0.606 | 0.806 | əhəmiyyətli deyil |
| F9 | 0.021 | 1.076 | əhəmiyyətli deyil |
| | | Büdcə gəlirləri | |
| F1 | 0.165 | 1.666 | əhəmiyyətli deyil |
| F2 | 0.050 | 2.005 | əhəmiyyətli deyil |
| F3 | 0.129 | 0.084 | əhəmiyyətli deyil |
| F4 | 0.815 | 1.019 | əhəmiyyətli deyil |
| F5 | 0.510 | 2.493 | əhəmiyyətlidir |
| F6 | 0.876 | 3.178 | əhəmiyyətlidir |
| F7 | 0.704 | 2.472 | əhəmiyyətlidir |
| F8 | 0.532 | 2.187 | əhəmiyyətlidir |
| F9 | 0.001 | 0.665 | əhəmiyyətli deyil |
| | | İqtisadiyyatda məşğul əhalinin sayı | |
| F1 | 0.320 | 16.800 | əhəmiyyətlidir |
| F2 | 0.014 | 12.676 | əhəmiyyətlidir |
| F3 | 0.541 | 8.066 | əhəmiyyətlidir |
| F4 | 0.714 | 52.20 | əhəmiyyətlidir |
| F5 | 0.601 | 41.037 | əhəmiyyətlidir |
| F6 | 0.884 | 89.024 | əhəmiyyətlidir |
| F7 | 0.625 | 13.071 | əhəmiyyətlidir |
| F8 | 0.847 | 44.105 | əhəmiyyətlidir |

| | | | |
|---|---|---|---|
| F9 | 0.134 | 5.844 | əhəmiyyətlidir |
| | Əhalinin hər nəfərinə düşən pul gəlirləri | | |
| F1 | 0.061 | 2.076 | əhəmiyyətlidir |
| F2 | 0.034 | 2.443 | əhəmiyyətlidir |
| F3 | 0.186 | 0.231 | əhəmiyyətli deyil |
| F4 | 0.952 | 4.617 | əhəmiyyətlidir |
| F5 | 0.533 | 4.345 | əhəmiyyətlidir |
| F6 | 0.785 | 7.076 | əhəmiyyətlidir |
| F7 | 0.876 | 2.886 | əhəmiyyətlidir |
| F8 | 0.578 | 2.748 | əhəmiyyətlidir |
| F9 | 0.111 | 0.789 | əhəmiyyətli deyil |
| | | Əsas kapitala investisiyaların həcmi | |
| F1 | 0.106 | 1.624 | əhəmiyyətli deyil |
| F2 | 0.030 | 1.561 | əhəmiyyətli deyil |
| F3 | 0.209 | 1.028 | əhəmiyyətli deyil |
| F4 | 0.990 | 18.235 | əhəmiyyətlidir |
| F5 | 0.358 | 1.659 | əhəmiyyətli deyil |
| F6 | 0.918 | 6.707 | əhəmiyyətlidir |
| F7 | 0.772 | 3.677 | əhəmiyyətlidir |
| F8 | 0.832 | 3.163 | əhəmiyyətlidir |
| F9 | 0.116 | 0.369 | əhəmiyyətli |

| | | | |
|---|---|---|---|
| | | | deyil |

**Mənbə: Müəllif tərəfindən ilk dəfə işlənilmişdir**

4 saylı cədvəlin məlumatlarından seçilmiş göstəricilərin əksəriyyəti arasında əlaqənin əhəmiyyətliliyi görünür. Statistik metodologiyaya əsasən əgər Styudent kriteriyasının hesablanmış qiyməti onun cədvəl qiymətindən yüksək olarsa, onda 95% (α=0.05) əminliklə demək olar ki, korrelyasiya əmsalı əhəmiyyətlidir, yəni amil göstəricisi nəticə göstəricisinə əhəmiyyətli təsir göstərir.

Müəyyən olunmuşdur ki, kiçik sahibkarlıq subyektlərinin sayı, bu sektorda çalışan işçilərin sayı, kiçik sahibkarlıq subyektlərinin məhsulunun həcminin ÜDM-da və sənaye məhsulunda payı göstəricilərinin sənaye məhsulu göstəricisi ilə əlaqəsi əhəmiyyətli deyildir. Məlumdur ki, bu faktor göstəricilərinin bəziləri nəticə göstəricisinə dolayı yolla təsir edir. Lakin kiçik sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması nəticə göstəricinə birbaşa təsir edən amillərin rolunu artıra bilər.

ÜDM məhsul göstəricisi ilə əlaqəsi araşdırılan doqquz amil göstəricisindən 5-nin, büdcə gəlirləri ilə 4-nün, əhalinin hər nəfərinə düşən pul gəlirləri ilə 7-nin, əsas kapitala investisiyaların həcmi ilə isə 4-nün əlaqəsi əhəmiyyətlidir. Lakin bunlarla müqayisədə iqtisadiyyatda məşğul əhalinin sayı ilə əlaqəsi öyrənilən amil göstəricilərinin hamısının əlaqəsi əhəmiyyətli olmuşdur. Deməli, kiçik sahibkarlığın sosial-iqtisadi inkişafda əhəmiyyətli rolu seçilmiş göstəricilərin təhlilinin bir çox hallarında özünü göstərir. Lakin onu da qeyd etmək lazımdır ki, sonrakı tədqiqatlarda araşdırmanın istiqamətlərinin və seçilmiş göstəricilər dəstinin təkmilləşdirilməsi və dolğunlaşdırılması zəruridir. Alınmış nəticələr sosial - iqtisadi inkişafda iqtisadiyyatın bu sektorunun rolunun yüksəldilməsi mənbələrinin aşkar edilməsinin zəruriliyini və məqsədəmüvafiqliyini subut edir.

Sahibkarlığın, o cümlədən kiçik sahibkarlığın inkişafının və biznes mühitinin öyrənilməsinin mühüm vasitələrindən biri monitorinqdir. Kiçik sahibkarlığın inkişaf vəziyyətinin və biznes mühitinin monitorinqi üçün səmərəli göstəricilər sisteminin formalaşdırılması yalnız həyata keçirilən proqram və layihələrin

məntiqinin, onun məqsəd və vəzifələrinin təfərrüatlı və diqqətli öyrənilməsi ilə mümkündür. Sistem tərkibində kəmiyyət və keyfiyyət göstəriciləri ola bilər. Onu da qeyd edək ki, optimal göstəricilərin seçilməsi ötəri deyil, yaradıcı məsələdir. Bu, kiçik sahibkarlığın vəziyyəti və inkişafının bütün tərəflərini xarakterizə edən göstəricilərə aiddir. Sahibkarlığın inkişaf vəziyyətinin və biznes mühitinin monitorinqi sahəsində mövcud beynəlxalq təcrübənin araşdırılması kiçik sahibkarlığın ölkə iqtisadiyyatında rolunu, onun inkişaf vəziyyəti və şəraitini qiymətləndirməyi, onun tənzimlənməsi və dövlət dəstəyinin istiqamətlərinin nəticələrini təhlil etməyi, həmçinin müxtəlif müqayisələrin aparılmasına imkan verən göstəricilərdən istifadə edilməsini zəruri edir və həmin göstəricilərdə aşağıda qeyd edilən informasiyanın əks olunması məqsədəuyğundur:

-yeni biznes start-up-ların sayı;

-kiçik sahibkarlıq müəssisələrinin yaşaması;

-kiçik sahibkarlığın inkişaf mərhələləri və bu sektorun artımı;

-regionlar üzrə kiçik sahibkarlığın fəallıq səviyyəsi;

-kiçik biznesin vəziyyətinin kəmiyyət təhlili;

-kiçik sahibkarlığın bazar payı və iqtisadi inkişafda rolu;

-investisiya və innovasiya səviyyəsi;

-kiçik sahibkarlığın inkişaf şəraitinin (mühitinin) qiymətləndirilməsi;

-kiçik sahibkarlıq sahəsində təhsilin keyfiyyətinin və korporativ mədəniyyətin vəziyyəti.

**Dissertasiyanın "Azərbaycanin qeyri-neft sektorunda innovasiya klasterləri əsasinda kiçik biznesin inkişafinin prioritet istiqamətləri" adlanan üçüncü fəslində** innovasiya proseslərinin dövlət tənzimlənməsinin prioritet istiqamətləri, klasterli inkişafın normativ-hüquqi bazası və regional istehsal şəbəkəsinin formalaşdırılması, qeyri-neft sektorunda kiçik elmtutumlu sahibkarlığın inkişafı və innovasiya klasterlərinin formalaşdırılmasının perspektiv istiqamətləri məsələlərinə baxılmışdır. Fəsildə qeyd olunmuşdur ki, ölkəmiz böyük innovasiya resurslarına və rəqabət qabiliyyətli intellektual potensiala malikdir. Ona görə də şəxsi elmi-texnoloji potensialın inkişafı və istifadəsinə arxalanan milli innovasiya sistemini

formalaşdırmaq olar. Ümumiyyətlə, milli innovasiya sisteminə keçid üçün aşağıdakılar lazımdır:

- Azərbaycan elminin eksperimental bazasını təkmilləşdirmək;
- elmlə istehsalın sıx əlaqəsini təmin etmək və yeni tipli innovasiya sistemini formalaşdırmaq,
- elmlə təhsilin güclü inteqrasiyasına nail olmaq,
- elmi-texnoloji mühiti bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq.
- innovasiyalı inkişafın mükəmməl və beynəlxalq standartlara müvafiq qanun-vericilik bazasını formalaşdırmaq və s.

Klasterləşmə əsasında iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə ölkədə elm və innovasiyanın inkişaf strategiyasının, klasterləşmə konsepsiyasının işlənib hazırlanması məqsədəuyğunluğu əsaslandırılmışdır və xüsusi qeyd olunmuşdur ki, ölkədə klasterləşmə konsepsiyası işləyib hazırlayarkən klasterlərin inkişafının dəstəklənməsinin üç əsas istiqamətini ayırd etmək lazımdır.

1.Klasterlərin institusional inkişafını, ilk növbədə onların inkişaf strategiyasını işləyib hazırlamaq.

2. Klaster iştirakçılarının rəqabətqabiliyyətliyinin yüksəldilməsinə istiqamət-lənən tədbirlər.

3.Klasterlərin inkişafı üçün əlverişli şəraitin formalaşdırılmasını təmin etmək.

Araşdırma göstərmişdir ki, klaster şəbəkəsinin formalaşdırılmasına yönəldilən siyasətin vahid metodikası yoxdur və o, qəbul edilmiş klaster konsepsiyası və milli xüsusiyyətlərlə müəyyən edilir. Fikrimizcə, bu məsələnin həllinə konseptual yanaşma zəruridir və regionun, bütövlükdə ölkənin iqtisadi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla klasterli inkişaf konsepsiyası hazırlanmalıdır. Qeyd olunmuşdur ki, qeyri-neft sənayesinin modernləşməsi və şaxələndirilməsi nəticəsində bu sahənin iqtisadi artımın əsas mənbəyinə çevrilməsi, onun ixracat potensialının artırılması, sənaye istehsalında regionların payının yüksəlməsi, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi və s. məqsədilə iri, orta və kiçik müəssisələrin qarşılıqlı faydalılığa əsaslanan əməkdaşlığının bu və ya digər formalarının tətbiqinin genişləndirilməsi zəruridir.

Müasir klasterləşmə təcrübəsində kiçik və orta müəssisələr üçün sənaye kooperasiyasının ən geniş yayılmış növlərinə outsorsinq, françayzinq və subkontraktinq aid edilir. Müasir iqtisadi reallıqda klasterli yanaşma əsasında kiçik və iri sahibkarlığın qarşılıqlı fəaliyyətinin ən mütərəqqi və səmərəli modellərinin geniş şəbəkəsinin formalaşdırılması olduqca vacibdir. Təcrübə göstərir ki, kiçik sahibkarlıq fəaliyyətinin yeni və səmərəli formalarının formalaşdırılması dövlətin himayəsi nəticəsində baş verir.

Beləliklə, araşdırma göstərir ki, kiçik sahibkarlıq klasterlərinin formalaşdırılması və inkişaf etdirilməsi iki yanaşma əsasında mümkündür. Birincisi, birgə fəaliyyətin həyata keçirilməsi məqsədilə öz resurslarını birləşdirmək və imkanlarını gücləndirmək qərarına gələn müstəqil təsərrüfat subyektlərinin təşəbbüsü, ikincisi, ictimai əhəmiyyətli layihələrin həyata keçirilməsində müxtəlif səviyyəli hakimiyyət orqanlarının fəal iştirakı vasitəsilə yaradılan klasterlərdir. Göründüyü kimi, birinci halda klasterlərin fəaliyyəti öz-özünü tənzimləmə, təsərrüfat fəaliyyəti haqqında müqavilələr əsasında, hər hansı bir dövlət orqanının əhəmiyyətli iştirakı olmadan həyata keçirilir. Əlbəttə ki, klasterlərin yaradılmasının bu variantı bir sıra şərtlərin olmasını tələb edir. Ona görə də klaster modeli əsasında kiçik biznesin inkişaf təcrübəsinin kifayət qədər olmadığı ölkəmizdə bu sektorun real imkanlarına cavab verən daha perspektivli variant ikincidir. Eyni zamanda klasterli model əsasında iqtisadiyyatını və biznesini inkişaf etdirən və dünyada uğur əldə etmiş ölkələrin təcrübəsi səmərəli və sabit bazar iqtisadiyyatı, davamlı iqtisadi artım, rəqabətqabiliyyətli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sahibkarlığın mütərəqqi formalarının fəaliyyəti üçün dövlətin fəal və çevik tənzimləyici rolunun zəruri olduğunu göstərir.

Tədqiqat zamanı aparılan təhlillər aşağıdakı nəticə və tövsiyələri irəli sürməyə əsas vermişdir.

- iqtisadi inkişaf hədəflərinə uyğun olaraq kiçik sahibkarlığın kompleks inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi, həmçinin əlverişli mühitinin formalaşdırılması olduqca vacibdir;

- milli iqtisadiyyatın rəqabətqabiliyyətliyi daha çox ayrı-ayrı diversifikasiyalı klasterlərin inkişaf səviyyəsindən asılıdır;

- kiçik sahibkarlığın inkişafının iqtisadi baxımdan ən səmərəli və rəqabətqabiliyyətli istiqaməti sənaye klasterlərinin formalaşdırılması vasitəsilə iri bizneslə təsərrüfat inteqrasiyasıdır;

- klaster modeli əsasında kiçik sahibkarlığın inkişafına mane olan əsas problemlərə klaster texnologiyasının həyata keçirilməsini təmin edən səmərəli metodoloji bazanın olmamasını, icraedici hakimiyyət orqanları və biznes nümayəndələrinin klasterli yanaşmanın tətbiqi məsələləri barəsində kifayət qədər məlumatlı olmamasını, klasterlərin təşkili üzrə hazırlıqlı mütəxəssislərin çatışmazlığını, klasterlərin formalaşdırılması ideyaçılarının və onları təcrübədə həyata keçirən liderlərin olmamasını, innovasiyalı kiçik sahibkarlığın yeni formalarının zəif inkişafını və s. aid etmək olar;

- kiçik sahibkarlıq sahəsində baş verən mühüm dəyişikliklərin monitorinqi və müqayisəli statistik təhlili kiçik biznesin formalaşmasına təsir edən əsas amillərin müəyyənləşdirilməsi, sahibkarlıq fəallığının məkan xüsusiyyətlərinin müəyyənləşdirilməsi, regional bölümdə kiçik və orta sahibkarlığın inkişafı, kiçik biznesin yaranma xüsusiyyətlərinin araşdırılması, bank bölməsi ilə kiçik və orta biznesin qarşılıqlı əlaqələrinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, klasterli model əsasında kiçik sahibkarlığın inkişaf nəticələrinin təhlili, onun mütərəqqi formalarının inkişaf səviyyəsi, perspektiv inkişaf meyllərinin modelləşdirilməsi və proqnozlaşdırılması və s. kimi məsələləri əhatə etməlidir;

- regionlarda kiçik sahibkarlığın inkişafını daha keyfiyyətli səviyyəyə qaldırmağa mane olan əsas problemlərə əmək bazarında tələb olunan ixtisaslı işçi çatışmazlığı, həm biznesin təşkili, həm də sonrakı fəaliyyət mərhələsində maliyyə (investisiya) resurslarının cəlb edilməsi çətinliyi, istehsal və ofis yerlərinə əlçatmanın məhdudluğu, mövcud istehsalın modernləşdirilməsi və yenilərinin tətbiqi tempinin aşağı olması, kiçik biznesin məhsullarının kifayət dərəcədə rəqabətqabiliyyətli olmaması, idxal malları tərəfindən gözlənilən təzyiqlər, müxtəlif səviyyəli bazarlara hərəkətetmə təcrübəsinin (marketinq tədbirləri, proqramları) və

imkanlarının zəif olması, kiçik sahibkarlığın iri bizneslə münasibətlərinin, dövlət-xüsusi sektor əməkdaşlığının, "biznes üçün biznes" qarşılıqlı fəaliyyəti mexanizminin kifayət qədər inkişaf etməməsi, korporativ sahibkarlıq mədəniyyətinin zəif olması və s. aiddir. Kiçik sahibkarlığın inkişafına mane olan bu problemlər bir-biri ilə qarşılıqlı əlaqədədir və bir-birini şərtləndirir. Ona görə də bütün səviyyələrdə onların həllinə kompleks yanaşmaq lazımdır;

- biznesin inkişaf dərəcəsi haqqında ümumi təsəvvürü formalaşdırmaq və sosial-iqtisadi inkişafa təsirin qiymətləndirilməsinə kompleksli yanaşmanı təmin etmək məqsədilə ilk növbədə, kiçik biznesin spesifik mahiyyətini xarakterizə edən əsas istiqamətləri aşkar etmək, hər bir istiqamətin inkişafını daha aydın əks etdirən mühüm göstəriciləri seçmək, kompleks qiymətləndirmə sistemində hər bir istiqamətin əhəmiyyətliyini nəzərə almaqla xüsusi göstəricilərin kompleks ümumiləşdirilməsi metodikasını seçmək, nəhayət kiçik biznesin inkişaf dərəcəsini və iqtisadiyyatda rolunun qiymətləndirilməsi kriteriyalarını formalaşdırmaq zəruridir;

- qeyri-neft sənayesinin modernləşməsi və şaxələndirilməsi nəticəsində bu sahənin iqtisadi artımın əsas mənbəyinə çevrilməsi, onun ixracat potensialının artırılması, sənaye istehsalında regionların payının yüksəlməsi, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi və s. məqsədilə iri, orta və kiçik müəssisələrin qarşılıqlı faydalılığa əsaslanan əməkdaşlığının bu və ya digər formalarının tətbiqinin genişləndirilməsi zəruridir.

**Dissertasiya mövzusu üzrə aşağıdakı elmi əsərləri dərc edilmişdir:**

1. Azərbaycan iqtisadiyyatının şaxələndiril-məsində kiçik biznesin rolu. // Azərbaycan Milli Elmlər Akademiyasıİqtisadiyyat İnstitutu. Elmi əsərlər. Bakı 2014,№3, s.138-143.

2. Kiçik biznesin cari vəziyyətinin statistik qiymətləndirilməsinin bəzi məsələləri. / Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Statistika və cəmiyyət elmi- praktiki konfransının məqalə və tezisləri, Bakı 2014, s. 142-144.

3. Ölkənin qeyri- neft sektorunda kiçik sahibkarlığın inkişafı və innovasiya

klasterləri. / Doktorantların və gənc tədqiqatçıların XIX respublika elmi konfransının materialları, I cild, Bakı 2015, s. 247-248.

4. İnnovasiya fəaliyyətinin inkişafında dövlət və xüsusi sektorun əməkdaşlığı. / İqtisadiyyatın davamlı İnkişafı: problemlər, perspektivlər Beynəlxalq elmi konfransının materialları. Sumqayıt 2016, (27-28 aprel),I hissə, s.60-62.

5. Sahibkarlığın inkişafı innovasiya yönümlü iqtisadiyyatın formalaşmasının əsas amili kimi. / Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materialları.Bakı 2016, (24-25 may), I cild, s. 408-411.

6. Статистическая оценка влияния малого бизнеса на экономическое развитие. // Вестник Д. Полоцкого Государственного Университета.Серия Д. Экономические и юридические науки. Полоцк 2016, №14, с.20-24.

7. The important aspects of entrepreneurship in the development of the non –oil sector of Azerbaijans economy in the context of inplementation of strategic road maps. // Theoretical & Applied Science. Technology and Education, Philadelphia, USA 06 (50) 2017,p. 152-157.

8. Qeyri- neft sektorunda sahibkarlığın inkişafında innovasiya klasterlərinin formalaşdırılmasının perspektiv istiqamətləri. // Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi, Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri, Bakı2017, №2, s.78-83.

9. Kiçik sahibkarlığın inkişafının statistik göstəricilər sistemi və onun təhlili istiqamətləri. // Statistika xəbərləri. Elmi-praktik jurnal. Bakı-2017, №4,.s. 70-74

10. Sahibkarlığın inkişafı və onun monitorinqinin təşkili məsələləri. //Audit jurnalı. Bakı 2017,cild 18, №4, s.104-111.

11. Kiçik biznesin inkişafında klaster şəbəkələrinin yaradılmasının əhəmiyyəti. // Geostrategiya. Aylıq ictimai-siyasi, elmi- populyar jurnal. Bakı noyabr-dekabr 2017, №6 (42), s.59-62.

Dissertasiya işinin bir sıra bölmələri Sumqayıt Dövlət Universitetinin “Biznesin təşkili və menecment” kafedrasında bir sıra fənnlərin tədrisində istifadə edilmişdir..

**Исмаилова Людмила Фамиль кызы**

**Статистическая оценка и роль предпринимательства в развитии ненефтяного сектора в Азербайджанской Республике**

## РЕЗЮМЕ


Диссертационная работа состоит из введения, трех глав, выводов, предложений и списка использованной литературы.

Во введении обосновывается актуальность избранной темы, рассматривается состояние ее изученностиь сформулированы цели и задачи, теоретические и методологические основы, практическая значимость и научная новизна исследования.

**В первой главе названной** «Роль предпринимательства в формировании инновационной экономики и ее теоретические вопросы» рассмотрены теоретические вопросы развития предпринимательства и формирования инновационной экономики, международная практика экономического развития на основе кластерной модели и роль кластерных сетей в развитии малого бизнеса.

**Во второй главе под названием** «Анализ текущего состояния малого предпринимательства в Азербайджанской Республике и организация его мониторинга» анализируются такие вопросы как система статистических показателей развития малого предпринимательства, рассматриваются вопросы статистического анализа развития малого предпринимательства и его региональной дифференциации, организационные вопросы мониторинга развития предпринимательства.

**В третьей главе названной «**Приоритетные направления развития малого бизнеса на основе инновационных кластеров в ненефтяном секторе Азербайджана» рассматриваются приоритетные направления государственного регулирования инновационных процессов, формирования

нормативно- юридической базы кластерного развития и региональных производственных сетей, перспективные направления развития малого наукоемкого предпринимательства в ненефтяном секторе и формирования инновационных кластеров.

В конце работы даны выводы и предложения полученные в результате исследования, а также список использованной литературы.

**Ismayilova Lyudmila Famil**

**Role and statistical evaluation of entrepreneurship in non-oil sector development in the Republic of Azerbaijan**

**Summary**

Dissertation consists of an introduction, 3 chapters, results and suggestions and list of the used literature.

At the introduction, the relevance of the subject is justified, the learning situation, goals and objectives of the problem, theoretical and methodological foundations, experimental importance and scientific innovations are given.

In chapter I “The role of entrepreneurship in the formation of an innovative economy and its theoretical issues ”theoretical issues related to the formation of innovative economy and the development of entrepreneurship, international experience of economic development based on cluster model and such issues as the role of cluster networks in the development of small business were studied.

In chapter II "Analysis of the current state of small business in the Republic of Azerbaijan and the organization of its monitoring" the statistical system of development of small entrepreneurship and the main directions of its analysis have been shown , the development of small entrepreneurship in Azerbaijan and regional differentiation have been statistically analyzed and the issues of organizing monitoring of entrepreneurship development have been studied.

In chapter III " Priority directions of small business development based on innovation clusters in non-oil sector of Azerbaijan" includes the priority directions of state regulation of innovation processes, normative-legal basis of cluster development and the formation of regional production network, as well as the development of small business ownership development and perspective directions of formation of innovation clusters have been shown.

At the end of the research work the conclusions and proposals resulting from the study were given, the list of used literature was shown .

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ ЭКОНОМИКИ**
**СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

---

На правах рукописи

**ИСМАИЛОВА ЛЮДМИЛА ФАМИЛЬ КЫЗЫ**

# СТАТИСТИЧЕСКАЯ ОЦЕНКА И РОЛЬ ПРЕДПРИНИМАТЕЛЬСТВА В РАЗВИТИИ НЕНЕФТЯНОГО СЕКТОРА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Специальность: 5311.01-** “Организация и управление предприятиями”

**АВТОРЕФЕРАТ**

**Диссертации на соискании ученой степени**
**доктора философии по экономике**

**Баку-2018**